# Həftəlik
# *Bülleten*



**120**

**5 Dekabr 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**Azərbaycanda sement istehsalı 5 mln. tona qədər yüksələcək.**

"Azərbaycanın sementə illik tələbatı təxminən 4 milyon ton təşkil edir. Tikinti sektorundakı davamlı artım fonunda bu rəqəmin yaxın illərdə 5 milyon tona qədər yüksələcəyi gözlənilir".

Bu barədə Alman-Azərbaycan Xarici Ticarət Palatasından (AHK) məlumat verilib. Bildirilib ki, Azərbaycanın sement sənayesi Cənubi Qafqaz regionunda ən böyük sektor kimi çıxış edir və ölkənin tikinti materialları sənayesinin əsas dayaqlarından birini təşkil edir.

Hazırda fəaliyyətdə olan dörd böyük zavod ölkədaxili tələbatı tam şəkildə qarşılayır və onların ümumi illik istehsal gücü 5,1 milyon tona bərabərdir.

Qeyd olunub ki, ölkədə tikinti sektorunda tələbatın artacağı proqnozlaşdırıldığı üçün sement ixracının mərhələli şəkildə azalması istisna edilmir: "Sement ixracında Azərbaycanın əsas xarici bazarlarından biri qonşu Gürcüstandır. 2024-cü ildə Azərbaycan ümumilikdə 850,7 min ton sement klinkeri ixrac edib ki, bu da əvvəlki ilin 874,6 min ton göstəricisi ilə müqayisədə cüzi azalmadır. Ölkədaxili tikinti və bərpa layihələrinin genişlənməsi fonunda yaxın illərdə prioritet daxili tələbatın tam təmin edilməsi olacaq".



**Qarabağdakı Dəmirli mədənindən ilk mis satışına başlanılıb.**

Azərbaycanda qızıl, mis və gümüş hasilatı ilə məşğul olan “Anglo Asian Mining” (AAM) şirkəti yeni Dəmirli mədənində istehsal olunan mis konsentratının satışına başlayıb. Qeyd edilib ki, konsentratın satışı üzrə müqavilə 3 noyabr 2025-ci il tarixində "Trafigura Pte Ltd" şirkəti ilə imzalanıb. Müqavilə çərçivəsində 17–30 noyabr tarixlərində "Trafigura"ya 2 055 ton mis konsentratı təhvil verilib. Konsentratın tərkibində 351 ton mis olub. İlkin (provisional) ümumi satış gəliri 3,6 milyon ABŞ dolları təşkil edib. Qeyd olunan məbləğdə Azərbaycan hökumətinin payı nəzərə alınmayıb. "Anglo Asian"dan həmçinin bildirilib ki, noyabr ayında Dəmirli mədənində rekord hasilat həcmləri əldə olunub. Ay ərzində ümumilikdə 1,95 milyon ton süxur çıxarılıb. Bunun 195 min tonu yüksək keyfiyyətli filiz, 269 min tonu oksid filiz, qalan hissəsi isə anbarların möhkəmləndirilməsi üçün istifadə edilən süxur materialı olub. Bundan əlavə, 27 noyabr tarixində bir gündə 81 min ton süxur çıxarılması ilə şirkətin tarixində ən yüksək günlük göstəriciyə nail olunub. AAM 1997-ci il avqustun 21-də imzalanan Production Sharing Agreement (PSA) tipli müqavilə çərçivəsində 6 yatağın işlənməsi fəaliyyətə başlayıb. Müqaviləyə əsasən, Azərbaycanın payı 51%, “Anglo Asian Mining PLC” şirkətinin payı isə 49% təşkil edir. Hazırda şirkət Azərbaycanda 8 müqavilə sahəsində fəaliyyət göstərmək hüququna malikdir. Şirkət London Birjasında listinqdədir və ölkənin ən iri qeyri-neft sənaye ixracatçılarından biridir.



**Norm sement istehsalında emal olunmuş qazma şlamından istifadəni sınaqdan keçirib.**

Norm Azərbaycanda sənaye tullantılarının təkrar istifadəsi istiqamətində növbəti addımı ataraq, neft-qaz sənayesində qazma əməliyyatlarından əldə edilən emal olunmuş qazma şlamı üzərində sənaye sınaqlarını müvəffəqiyyətlə tamamlayıb. Azeri M-I tərəfindən təchiz olunan, təqribən 1000 ton emal olunmuş qazma şlamı Norm Sement zavodunda klinker istehsalı zamanı alternativ xammal kimi istifadə edilib. Laboratoriya, emissiyaya nəzarət və əməliyyat testləri materialın sobada emalı üçün tələb olunan keyfiyyət, təhlükəsizlik və ətraf mühitlə bağlı bütün standartlara cavab verdiyini təsdiqləyib. Sınaq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilmiş Ətraf Mühitə Təsirin Qiymətləndirilməsinə (ƏMTQ) müvafiq şəkildə həyata keçirilib və bütün mərhələlərdə tənzimləyici qaydalara, eləcə də ətraf mühitin tələblərinə uyğunluğuna tam nəzarət təmin edilib. Layihə qazma əməliyyatları ilə sement istehsalı arasında dövri əlaqə formalaşdırır. Belə ki, neft-qaz sektoru üçün quyu-tamponaj sementi təchiz edən Norm, öz növbəsində həmin quyulardan əldə edilən emal olunmuş qazma şlamını klinker istehsalında təkrar istifadə edəcək. Sənaye tullantılarından alternativ xammal kimi istifadə ətraf mühitə təsirin azaldılmasına, xammalın səmərəli istifadəsinə və dairəvi iqtisadiyyatın inkişafına gətirib çıxaracaq.



**Azərbaycanda polad boru istehsalı 2,1 dəfə artıb.**

Bu ilin yanvar-oktyabr ayları ərzində Azərbaycanda 180,7 min ton polad boru istehsal edilib.

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edilib.

Məlumata əsasən, bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 94,8 min ton və ya 2,1 dəfə çoxdur.

Bu ilin noyabrın 1-i vəziyyətinə hazır məhsul ehtiyatı 3,2 min ton təşkil edib.

Qeyd edək ki, Azərbaycanda metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 2025-ci ilin yanvar-oktyabr aylarında 1,052 milyard manatlıq məhsul istehsal olunub. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə hazır metal məmulatlarının istehsalı sahəsində 10 faiz, metallurgiya sənayesi məhsullarının istehsalında isə 12,9 faiz azalma müşahidə olunub.



**Xocavəndin Kiş kəndində 40 ev təmir olunucaq - 2,7 milyon manatlıq LAYİHƏ.**

Azərbaycanın azad edilmiş ərazilərində bərpa-quruculuq işləri mərhələli şəkildə davam etdirilməkdədir. Dövlət satınalmalarının vahid internet portalına istinadən məlumatına görə, bu işlərin davamı kimi Xocavənd rayonunun daha bir kəndində evlərin təmirinə başlanılır. Məlumata əsasən, bu dəfə rayonun Kiş kəndində fərdi yaşayış (40 ev – 7600 m2) evlərinin əsaslı təmir işləri aparılacaq. Belə ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti artıq bununla bağlı müvafiq işləri yekunlaşdırıb. Qurum sözügedən işlərin icrasını “Fasttech” Məhdud Məsuliyyətli Cəmiyyətinə (MMC) həvalə edib və müqavilə bağlayıb.



**MİDA Naxçıvanda yaşayış kompleksi tikəcək.**

Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) Naxçıvanda yaşayış kompleksi inşa edəcək. Bunu jurnalistlərə açıqlamasında MİDA-nın mətbuat katibi Diana Dadaşova deyib.

O qeyd edib ki, MİDA Bakının Suraxanı rayonunun Hövsan qəsəbəsində 2,31 hektar torpaq sahəsində yeni binaların inşasına başlayıb:

“Bununla yanaşı Hövsan qəsəbəsində 5,83 hektar torpaq sahəsində və Abşeronun Saray qəsəbəsində 4,5 hektar torpaq sahəsində də yeni yaşayış komplekslərinin tikintisinə başlanılması üçün sənədləşdirmə işləri həyata keçirilir. Paralel olaraq MİDA-nın növbəti layihələrindən birinin Naxçıvan şəhərində reallaşdırılması nəzərdə tutulub. Hazırda bu yeni yaşayış kompleksinin layihələndirmə işləri həyata keçirilir”.



**ATMİA birinci Azərbaycan-Efiopiya Biznes Forumunda iştirak edib.**

Noyabrın 25-də Afrika qitəsində ilk dəfə olaraq Efiopiyanın paytaxtı Əddis-Əbəbə şəhərində Azərbaycan iş adamlarının iştirakı və ilə birinci Azərbaycan-Efiopiya Biznes Forumu keçirilib. 100-dən çox iştirakçının qatıldığı forum Afrika - Azərbaycan Ticarət Əlaqələri Təşkilatının (AFAZ) təşkilatçılığı və Azərbaycan Respublikasının Efiopiyadakı Səfirliyinin dəstəyi ilə keçirilib.

Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosisasiyasının da iştirak etdiyi biznes forumda ticarət palataları və dövlət qurumları ilə əməkdaşlıq görüşləri, yeni tərəfdaşlıqların qurulması, ixrac, investisiya imkanlarının həyata keçirilməsi müzakirə edilib.



**ATMİA sahibkarların fəaliyyət mühitinin təkmilləşdirilməsi və biznes infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması məqsədilə keçirilən ictimai müzakirələrdə iştirak etdi.**

Sahibkarların fəaliyyət mühitinin təkmilləşdirilməsi və biznes infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması məqsədilə geniş ictimai müzakirə keçirildi.
Tədbirdə şəhərsalma sahəsində görülən işlər, yeni biznes imkanları və mövcud çağırışlar ətrafında fikir mübadiləsi aparıldı.
KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə keçirilən müzakirədə aidiyyəti dövlət qurumlarının nümayəndələri və sahibkar iştirak etdi.
İştirakçılar şəhərin inkişaf trendlərinin biznes mühitinə təsiri, ticarət infrastrukturunun yenilənməsi və sahibkarların fəaliyyətinin asanlaşdırılması ilə bağlı təkliflərini bölüşdülər.
ATMİA əməkdaşları və üzvləri sahibkarlar da bu müzakirələrdə aktiv iştirak edərək, sahibkarlar üçün daha əlverişli mühitin formalaşdırılmasına dair fikirlərini səsləndirdilər.





**MATANAT A Şirkətlər Qrupu növbəti maarifləndirmə tədbirini uğurla həyata keçirdi.**

MATANAT A USTALAR KLUBU peşəkar inkişaf və texniki biliklərin artırılması istiqamətində təşkil etdiyi ənənəvi maarifləndirmə tədbirlərini davam etdirir. Növbəti silsilə tədbirlər çərçivəsində Gəncə şəhərində yüzlərlə peşəkar usta ilə bir araya gələrək şirkətin brendləri olan ROKOL, MİRVANA, MUTLU boyaları və lak məhsulları barədə ətraflı məlumatlar verildi.

Tədbir zamanı iştirakçılara məhsulların üstünlükləri, istifadə sahələri və tətbiq üsulları praktik nümunələrlə izah olundu. Tədbirin sonunda iştirakçılar müxtəlif hədiyyələrlə mükafatlandırıldılar.






**Hörmətli Assosiasiya üzvləri,**

Assosiasiymız 26-27 yanvar 2026-ci ildə Çinin Pekin şəhərində keçiriləcək Beynəlxalq Ticarət və İnvestisiya Konfransına dəvət olunub. Konfrans İpək Yolu Alyansı, Huahe İnternational Şirkəti, Çinin xarici biznes assosiasiyaları və qurumları tərəfindən təşkil olunub. Üzvlərimizin tədbirdə iştirakı əməkdaşlıq üçün yeni imkanlar açacaq, yeni işgüzar əlaqələr və tərəfdaşlıqların qurulmasında əhəmiyyətli uğurlar gətirəcək. Bu tədbir "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində ölkələr və regionlar arasında müxtəlif sahələri eləcə də tikinti materialları istehsalı sahəsində işgüzar əlaqələrin inkişaf etdirilməsinə yönəlmiş mühüm tədbirdir. Konfrans zamanı Çin şirkətləri ilə b2b görüşlər keçiriləcək.

Həmçinin Assosiasiyamız ilə memorandum imzalanacaq. Üzvlərimizi bu tədbirdə fəal iştirak etməyə dəvət edirik.

İştirak etmək istəyən üzvlərimizdən 050 250 95 17 nömrəsi ilə əlaqə saxlayıb qeydiyyatdan keçmələrinizi xahiş edirik.

Qeyd edək ki, səfər qrup şəklində həyata keçiriləcək.

ATMİA

**Sərginin adı: BUILDEX 2025**

**Tarixlər: 15-19 dekabr 2025-ci il,**

**Məkan: Dəməşq Beynəlxalq Sərgi Meydanı, Dəməşq (Suriya)**

Beynəlxalq Tikinti Sərgisi. BUILDEX, xüsusilə təchizatçılar, istehsalçılar, alıcılar və qərar qəbul edənlər arasında məhsuldar qarşılıqlı əlaqəni asanlaşdırmaqla şirkətlərə aktiv və perspektivli Suriya bazarından faydalanmaq üçün platforma təqdim edir.

**Sərginin adı: ISMEX 2025**

**Tarixlər: 18-21 dekabr 2025-ci il,**

**Məkan: İsfahan Beynəlxalq Sərgi Meydanı, İsfahan (İran)**

İranın ixtisaslaşmış mədənçilik, sement, polad, tunel qazma, yol tikintisi, maşınqayırma və əlaqəli avadanlıqların təchizat zənciri sərgisi

**Sərginin adı: LIBYA CONSTRUCTION EXPO 2025**

**Tarixlər: 13-16 dekabr 2025-ci il,**

**Məkan: Misrata (Liviya)**

Liviyanın Beynəlxalq Tikinti Sərgisi. Tədbir tərəfdaşlıqları asanlaşdırmaq, bilikləri və sənayenin ən yaxşı təcrübələrini inkişaf etdirmək, eləcə də yerli və beynəlxalq biznesləri bazara çıxarmaq üçün bir platforma rolunu oynayır.

**Sərginin adı: TAIPEI BUILDING SHOW 2025**

**Tarixlər: 11-14 dekabr 2025-ci il,**

**Məkan: Taipei Nangang Sərgi Mərkəzi, Taypey (Tayvan)**

500-dən çox yerli və beynəlxalq tikinti materialları şirkətini bir araya gətirən Taipei Beynəlxalq Tikinti Sərgisi,

**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SƏRHƏD XİDMƏTİ TENDER KEÇİRİR.**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti açıq tender elan edib.
Elanda tikinti materiallarının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Toğrul Qarayev, Satınalma mütəxəssisi
Email: dsx.tender@dsx.gov.az
Əlaqə telefonu:+994 12 498 01 36



**"BAKI KRİSTAL ZALI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN ETDİ.**

"Bakı Kristal Zalı" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edib.
Elan "Bakı Kristal Zalı" MMC İdman - Konsert Kompleksinin dam, fasad metal - konstruksiya, kompozit fasad örtüyünün və metal ferma konstruksiyasının təmiri üzrə layihə - smeta sənədlərinin hazırlanmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Satınalma, Komissiyası
Email: bakucrystalhall@mys.gov.az
Əlaqə telefonu:+994 10 321 85 93



**"İNNOVASİYA VƏ RƏQƏMSAL İNKİŞAF AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN ETDİ.**

"İnnovasiya Və Rəqəmsal İnkişaf Agentliyi" Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Elanda agentliyin inzibati binalarının təmir işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Mahmud Təhməzli, Aparıcı mütəxəssis
Email:mahmud.tahmazli@idda.az
Əlaqə telefonu: +994 51 235 63 00



## "BAKI DÖVLƏT UNİVERSİTETİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN ETDİ.

"Bakı Dövlət Universiteti" Publik Hüquqi Şəxsi açıq tender elan edib. Elan Bakı Dövlət Universitetinin Yasamal rayonu, Akademik Zahid Xəlilov küçəsi, 33 ünvanında yerləşən 10 mərtəbəli, zirzəmili, 1 nömrəli tədris binasının əsaslı təmiri işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Nailə Əsgərli, Şöbə müdiri
Email: nailaasgarli@bsu.edu.az
Əlaqə telefonu: +994 12 539 15 36



**"DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN ETDİ.**

"Dayanıqlı Və Operativ Sosial Təminat Agentliyi" Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Elan Masallı DOST Mərkəzinin tikintisi və avadanlıqların satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Sücayət Əliyeva, Aparıcı mütəxəssis
Email: sujayat.f.aliyeva@sosial.gov.az
Əlaqə telefonu: +994 12 525 50 26





**www.atmia.az**